PROFESSIONAL
FINANCIAL
EXPERTS



# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXSİ

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı 31 dekabr 2023-cü il tarixində bitən il üzrə**

**“Professional Financial Experts”**
**Məhdud Məsuliyyətli Cəmiyyəti**

# "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ-nin (VOEN: 1702596741) 01.01.2023-cü ildən 31.12.2023-cü ilədək olan dövrün maliyyə hesabatlarının auditi

**BAKI – 2024**

*" Professional Financial Experts" MMC*

*Vöen: 1007450831*

*<u>Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən</u>*

*<u>Auditə İcazə № AT/ 254 – Verilmə tarixi 26.09.2022</u>*

*Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəs, sıra3 ev23A*

*Telefon: İş:(012) 5696559; mobil: (051) 2517731*

*E-mail:rashad.hasanov23@gmail.com*

№ 4cODOC4AIc **"27" avqust 2024-cü il**

**"SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ"**

**PUBLİK HÜQUQİ ŞƏXSİNİN TƏSİSÇİLƏRİNƏ**

**"SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ -nin (VOEN: 1702596741) 01.01.2023-cü ildən 31.12.2023-cü ilədək olan dövrün maliyyə hesabatlarının auditi üzrə**

**MÜSBƏT RƏY**

Biz, "SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ" PHŞ -nin 01.01.2023-cü ildən 31.12.2023-cü ilədək olan dövrün maliyyə vəziyyətinə dair hesabatından, məcmuu gəlirlərə dair hesabatından, kapitalda dəyişiklik hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəyin bildirilməsi üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik tələblərə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdi.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə müəssisənin maliyyə göstəriciləri üzrə aparılmış audit ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və rəyimizin formalaşmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Rəhbərliyin və auditini apardığımız iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə , dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyət ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı , yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər sahibkar subyektinin xüsusi təyinatlı bölmələrinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Cəmiyyətin audit yoxlamasının aparılmasında məqsədimiz, maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir.Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**İcraçı:**

**"Professional Financial Experts"**
**Məhdud Məsuliyyətli Cəmiyyəti (İCAZƏ-AT/254 26 Sentyabr 2022-ci il)**
**direktor-auditoru:Həsənov Rəşad Novruz oğlu**

**27 avqust 2024-cü il**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət
PROFESSIONAL FINANCIAL EXPERTS
Limited Liability Company Azerbaijan Republic

## Maliyyə vəziyyəti haqqında hesabat

31.12.2023-cü il tarixə

VÖEN: 1702596741

Mühasibat uçotu subyektinin adı: "Sosial Tədqiqatlar Mərkəzi" PHŞ

Ünvan: AZ1073,Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küç. 18

AZN

| | | | Hesabat dövrü üzrə 31.12.2023 | Əvvəlki dövr üzrə 31.12.2022 |
|---|---|---|---|---|
| Aktivlər | | | | |
| | 1 | **Uzunmüddətli Aktivlər** | | |
| | 10 | Qeyri-maddi aktivlər | 14,094.32 | 16,293.16 |
| | 11 | Torpaq, tikili və avadanlıqlar | 3,627,894.28 | 3,595,965.38 |
| | | Bioloji aktivlər | 8,345.00 | 8,345.00 |
| | Cəmi | **Uzunmüddətli Aktivlər** | **3,650,333.60** | **3,620,603.54** |
| | 2 | **Qısamüddətli aktivlər** | | |
| | 20 | Ehtiyatlar | 298,817.73 | 169,217.77 |
| | 21 | Qısamüddətli debitor borcları | 0.00 | 0.00 |
| | 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 293,440.45 | 653,502.82 |
| | 24 | Sair qısamüddətli aktivlər | 4,207.13 | 2,899.79 |
| | Cəmi | **Qısamüddətli aktivlər** | **596,465.31** | **825,620.38** |
| Cəmi | | **Aktivlər** | **4,246,798.91** | **4,446,223.92** |
| **Kapital və Öhdəliklər** | | | | |
| | 3 | **Kapital** | | |
| | 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 1,280,338.00 | 1,280,338.00 |
| | 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 2,961,858.91 | 1,947,408.04 |
| | | Kapital ehtiyatları | 0.00 | 1,218,477.88 |
| | Cəmi | **Kapital** | **4,242,196.91** | **4,446,223.92** |
| | 4 | **Uzunmüddətli Öhdəliklər** | | |
| | 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 0.00 | 0.00 |
| | 53 | Uzunmüddətli kreditor borcları | 0.00 | 0.00 |
| | 54 | Sair uzunmüddətli öhdəliklər | 0.00 | 0.00 |
| | Cəmi | **Uzunmüddətli Öhdəliklər** | **0.00** | **0.00** |
| | 4 | **Öhdəliklər** | | |
| | 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 0.00 | 0.00 |
| | 53 | Qısamüddətli kreditor borcları | 0.00 | 0.00 |
| | 54 | Sair qısamüddətli öhdəliklər | 4,602.00 | 0.00 |
| | Cəmi | **Qısamüddətli Öhdəliklər** | **4,602.00** | **0.00** |
| Cəmi | | **Kapital və Öhdəliklər** | **4,246,798.91** | **4,446,223.92** |

Zahid Oruc
İdarə Heyətinin sədri

Aynur Mikayılova
Maliyyə departamentinin müdiri

**Məcmu mənfəət və ya zərər haqqında hesabat**

31.12.2023-cü il tarixə
VÖEN: 1702596741

Mühasibat uçotu subyektinin adı: **"Sosial Tədqiqatlar Mərkəzi" PHŞ**

AZN

| | | Hesabat dövrü üzrə 01.01.2023-31.12.2023 | Əvvəlki dövr üzrə 01.01.2022-31.12.2022 |
|---|---|---|---|
| *Gəlirlər* | | | |
| 60 | Əsas əməliyyatdan gəlir | 2,164,984.40 | 1,846,387.18 |
| 61 və 73 | Qeyri birja əməliyyatlarından gəlir (subsidiya) | 0.00 | |
| | Sair gəlirlər | 754.31 | |
| **Cəmi** | **Gəlirlər** | **2,165,738.71** | **1,846,387.18** |
| *Xərclər* | | | |
| | Sərf edilmiş malların dəyəri | (233,240.90) | (331,050.66) |
| | Əmək haqqı və əmək haqqına görə ayırmalar | (1,314,803.28) | (1,205,278.63) |
| | Amortizasiya xərcləri | (156,948.40) | (142,323.66) |
| 73 və 61 | Digər əməliyyat xərcləri | (664,649.26) | (795,479.03) |
| | Mənfi məzənnə fərqi | (123.88) | (3,356.20) |
| **Cəmi** | **Xərclər** | **(2,369,765.72)** | **(2,477,488.18)** |
| **Vergiqoymadan əvvəl Mənfəət (Zərər)** | | **(204,027.01)** | **(631,101.00)** |
| **90** | **Mənfəət Vergisi** | **0.00** | **0.00** |
| **341** | **Hesabat dövründə xalis mənfəət (zərər)** | **(204,027.01)** | **(631,101.00)** |

**Zahid Oruc**
**İdarə heyətinin sədri**

**Aynur Mikayılova**
**Maliyyə departamentinin müdiri**

## Kapitalda dəyişikliklər haqqında hesabat

31.12.2023-cü il tarixə

VÖEN: 1702596741

Mühasibat uçotu subyektinin adı: **"Sosial Tədqiqatlar Mərkəzi" PHŞ**

Ünvan: AZ1073,Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küç. 18

AZN

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|
| **01.01.2022-ci il tarixinə qalıq** | 1,280,338.00 | 1,218,477.88 | 2,578,509.04 | 5,077,324.92 |
| **Hesabat dövründə silinmişdir** | | | | |
| **Hesabat dövründə daxil olmuşdur** | | | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | | (631,101.00) | (631,101.00) |
| **31.12.2022-ci il tarixinə qalıq** | 1,280,338.00 | 1,218,477.88 | 1,947,408.04 | 4,446,223.92 |
| **01.01.2023-cü il tarixinə qalıq** | 1,280,338.00 | 1,218,477.88 | 1,947,408.04 | 4,446,223.92 |
| **Hesabat dövründə silinmişdir** | | (1,218,477.88) | | (1,218,477.88) |
| **Hesabat dövründə daxil olmuşdur** | | | 1,218,477.88 | 1,218,477.88 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | | (204,027.01) | (204,027.01) |
| **31.12.2023-cü il tarixinə qalıq** | 1,280,338.00 | 0.00 | 2,961,858.91 | 4,242,196.91 |

**Zahid Oruc**
**İdarə Heyətinin sədri**

**Aynur Mikayılova**
**Maliyyə departamentinin müdiri**

# Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

31.12.2023-cü il tarixə

VÖEN: 1702596741

Mühasibat uçotu subyektinin adı: **"Sosial Tədqiqatlar Mərkəzi" PHŞ**

Ünvan: AZ1073,Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küç. 18

AZN

| | Hesabat dövrü üzrə 01.01.2023-31.12.2023 | Əvvəlki dövr üzrə 01.01.2022-31.12.2022 |
|---|---|---|
| Əməliyyat Fəaliyyəti | | |
| **Əməliyyatdan əldə olunan Pul vəsaiti** | | |
| Əsas fəaliyyət üzrə daxilolma | 2,164,984.40 | 1,846,067.18 |
| Digər gəlirlərdən daxilolmalar | 754.31 | 320.00 |
| **Cəmi Əməliyyatdan əldə olunan Pul vəsaiti** | **2,165,738.71** | **1,846,387.18** |
| **Əməliyyat fəaliyyətindən Xaricolmalar** | | |
| Mallar və xidmətlərə görə xaricolmalar | (362,840.86) | (250,410.04) |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | (1,316,986.90) | (1,208,083.56) |
| Sorğuların keçirilməsi üzrə ödənişlər | (365,552.96) | (158,048.00) |
| Vergilərə görə xaricolmalar | | |
| Digər Ödənişlərə Görə | (293,741.90) | (253,208.47) |
| **Cəmi Əməliyyat fəaliyyətindən Xaricolmalar** | **(2,339,122.62)** | **(1,869,750.07)** |
| **Cəmi Əməliyyat Fəaliyyəti** | **(173,383.91)** | **(23,362.89)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (186,678.46) | (721,659.34) |
| **Cəmi İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | **(186,678.46)** | **(721,659.34)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması** (azalması) | **(360,062.37)** | **(745,022.23)** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalıq** | **653,502.82** | **1,398,525.05** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **(360,062.37)** | **(745,022.23)** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalıq** | **293,440.45** | **653,502.82** |

**Zahid Oruc**
**İdarə Heyətinin sədri**

**Aynur Mikayılova**
**Maliyyə departamentinin müdiri**

**"Sosial Tədqiqatlar Mərkəzi" PHŞ**

## UÇOT SİYASƏTİ VƏ MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR

31 dekabr 2023-cü il tarixində başa çatmiş il üzrə

---

### MƏRKƏZ HAQQINDA MƏLUMAT

"Sosial Tədqiqatlar Mərkəzi" PHŞ (bundan sonra Mərkəz) Azərbaycan Respublikası Prezidentinin 08 fevral 2019-cu il tarixli 525 nömrəli fərmanına əsasən təsis olunub. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmış və ona 1702596741 saylı VÖEN verilmişdir.

Mərkəzin əsas fəaliyyəti ölkə miqyasında ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil etmək, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirmək və dəyişiklikləri proqnozlaşdırmaq, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdırmaq, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasının təmin etmək, həyata keçirdiyi elmi-analitik təhlillərin nəticələrini dövlət orqanlarına operativ və təcili təqdim etməkdən ibarətdir.

Mərkəzin təsisçisi: Azərbaycan Respublikası 100%.

01.01.2023-31.12.2023-cü il hesabat dövründə "Sosial Tədqiqatlar Mərkəzi" PHŞ-nin maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

İdarə Heyətinin Sədri Zahid Oruc Məhərrəm oğlu;

Maliyyə departamentinin müdiri Mikayılova Aynur.

Mərkəzin hüquqi ünvanı aşağıdakı kimidir:

AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küç. 18.

### TƏQDİMATIN ƏSASI

Mərkəz mühasibat yazılışlarını Azərbaycanın mühasibat uçotu qaydaları əsasında aparır.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

## UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq Mərkəzin maliyyə hesabatlarında tətbiq edilmişdir.

## UÇOT METODU

Mərkəz mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) üzrə tərtib edilmişdir. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəziaktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir. Bu maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Yenidən qiymətləndirmə aparılan və ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilən torpaq, binalar, satış üçün saxlanılan maliyyə aktivləri və maliyyə öhdəlikləri (törəmə alətləri də daxil olmaqla) yenidən qiymətləndirilmişdir.

Maliyyə hesabatları mühasibat uçotu subyektinin fəaliyyətinin davam etməsi və yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyi ehtimalına əsaslanaraq hazırlanıb.

Maliyyə hesabatları ilkin mühasibat sənədləri əsasında hazırlanmışdır.

Mərkəzin vergi uçotu Azərbaycan Respublikasının vergi məcəlləsinə əsasən aparılır.

## MHBS-a ƏSASLANAN PRİNSİPLƏR

Mühasibat uçotunun aparılması zamanı MHBS-a əsaslanan prinsiplərə, maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətləri və maliyyə hesabatları elementlərinin qiymətləndirmə metodlarına üstünlük verilir.

Mühasibat uçotu subyektləri tərəfindən mühasibat uçotu hesablama metodu əsasında aparılır və ona uyğun olaraq maliyyə hesabatları tərtib edilir. Bu metoda əsasən əməliyyatların və digər hadisələrin təsiri onların baş verdiyi (pul vəsaitləri və ya onların ekvivalentlərinin qəbul edildiyi və ya ödənildiyi vaxt deyil) zaman tanınır və uçot registrlərində qeyd edilir.

Maliyyə hesabatları mühasibat uçotu subyektinin fəaliyyətinin davam etməsi və yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyi ehtimalına əsaslanaraq hazırlanır.

MHBS-nin yoxluğunda prinsiplərin əsasında qərar vermək olar – fundamental keyfiyyət xüsusiyyətləri - 1. Uyğunluq (istifadəçilərin qərar vermələrinə təsir edə bilən məlumat (praqnozverici və ya təsdiqedici) məlumatın münasibliyi onun mahiyyəti və əhəmiyyətliliyindən asılıdır. 2. Düzgün təqdimat (təqdim etmək istədiyi məlumatı düzgün formada təqdim edə bilmək) 2.1. Mahiyyətin formadan üstünlüyü 2.2. Tamlıq 2.3. Təhrifdən uzaq 2.4. Neytrallıq (qərəzli olmamaq). Qüvvətləndirici keyfiyyət

xüsusiyyətləri – 1. Müqayisəlilik (təqdim olunan müqayisə edilə bilən olmalıdır). 2. Anlaşıqlılıq 3. Vaxtında təqdimat 4. Təsdiq edilə bilən (ilkin uçot sənədləri və ya etibarlı hesablama). Mühasibat uçotunun prinsipləri – 1. Ardıcıllıq (sabitlik) (Müəssisənin uçot siyasəti yalnız yeni standart tələb edərsə və ya uçot siyasətinin dəyişməsi daha ədalətli təqdimata gətirib çıxardacaqsa) 2. Əhəmiyyətlilik – məlumatın buraxılması və məlumatın təhrif edilməsi (istifadəçilərin qərarvermәsinə təsir göstərə bilərsə) əhəmiyyətlilik buraxılmış səhvin onu əhatə edən şəraitlərdə qiymətləndirilməsi zamanı onun həcmi və xarakterindən asılıdır – Böyüklüyünə görə (məbləğinə görə) * Məlumatın məbləği > vergidən əvvəlki mənfəət x 3-5%. * Məlumatın məbləği > gəlir x 0.5-1%. Məlumatın məbləği > Cəmi aktivlər x 1-2%. 3. Ədalətli təqdimat (təhrifsiz, qərəzsiz məlumat ədalətli təqdim olunmuş məlumat sayılır) 4. Ehtiyyatlılıq (heç bir hesabat maddəsi olduğundan daha çox və ya daha az göstərilə bilməz) 5. Uzlaşma (gəlirlərin qazanılması üçün çəkilən xərclər gəlirlərin tanındığı zaman tanınmalıdır. Gəlirlərlə xərclər uzlaşdırılmalıdır).

Mühasibat uçotu subyektinin fəaliyyətində müəyyən sabitlik ehtimal olunduqda, onun uzunmüddətli aktivləri amortizasiya edilir. Əgər mühasibat uçotu subyektinin ləğv olunması labüddürsə, aktivlər qısamüddətli (dövriyyə) və uzunmüddətli (dövriyyədənkənar) kimi təsnifləşdirilmir. Bu zaman, bütün aktivlər ləğv olunması gözlənilən qısamüddətli aktivlər hesab olunur. Öhdəliklər isə, maliyyə hesabatlarının istifadəçiləri üçün bu öhdəliklərin kreditorlara ödənişlər prioritetləri əsasında təsnifləşdirilməsi, onların ənənəvi olaraq, qısamüddətli və uzunmüddətli öhdəliklər kimi təsnifləşdirilməsindən daha əhəmiyyətli hesab edilir.

## ƏMƏLİYYAT VALYUTASI

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan manatıdır ("AZN")

## PUL VƏSAİTLƏRİ VƏ EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir.

Mərkəz Paşa Bankda hesablaşma hesabı açmaqla bank əməliyyatlarını Azərbaycan manatı ilə həyata keçirir. Bundan əlavə bankda xarici valyuta hesabları və kopporativ kart hesabı mövcuddur.

Mərkəzin bank rekvizitləri aşağıdakı kimidir:

| | |
|---|---|
| - hesablaşma hesabı | - AZ40IBAZ38090019446295745207 |
| - müxbir hesabı | - AZ03NABZ01350100000000002944 |
| - bankın kodu | - 805614 |
| - bankın VÖEN-i | - 9900001881 |
| - S.W.I.F.T. BİK | - İBAZAZ2X |

Mərkəz üzrə pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti aşağıdakı kimidir:

| **Pul vəsaitləri** | **31.12.2023** | **01.01.2023** |
|---|---|---|
| Bank hesabında olan pul vəsaitləri | **293 440.45** | **584 079.42** |
| Valyuta hesabı (AZN ekvivalenti ilə) | | **69 423.40** |
| Kassada nağd pul vəsaitləri | | |
| **CƏMİ** | **293 440.45** | **653 502.82** |

## TORPAQ, TİKİLİ, AVADANLIQ VƏ AMORTİZASİYA

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq (TTA) obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. TTA-lar hesabdan silindikdə və onların davamlı istifadəsi artıq heç bir iqtisadi səmərə gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. "İlkin dəyər" Mərkəzin tarixən bu aktivi əldə etmək üçün xərclədiyi pul vəsaitidir. TTA-nın istifadəyə hazır olanadək yaranan bütün normal xərclər ilkin dəyərə daxil edilməlidir ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla TTA-ların amortizasiyası "azalan qalıq metodu" (ilin sonuna TTA-nın qalıq dəyəri 500 manatdan az olduqda, qalıq dəyərinin məbləği gəlirdən çıxılır) əsasında illik (1 yanvar – 31 dekabr) amortizasiya dərəcələrini istifadə etməklə hesablanır

| | |
|---|---|
| Bina və qurğular | 7 % |
| Maşın və avadanlıqlar | 20 % |
| Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | 25 % |
| Nəqliyyat vasitələri | 25 % |
| Digər əsas vəsaitlər | 20 % |

Mərkəzin balansında torpaq yoxdur. Qalan bütün TTA-lar ilkin dəyərdən amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Mərkəzə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri o dövrün xərcinə silinir.

Mərkəz üzrə əsas vəsaitlərin hərəkəti aşağıdakı kimidir:

| | Bina, qurğular | Maşın, avadanlıqlar | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Kapitallaşdırma | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2023-cü il tarixə ilkin dəyər** | **1 145 970.00** | **170 385.22** | **203 000.00** | **161 377.61** | **2 469 932.78** | **4 150 665.61** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yığılmış amortizasiya | 288 724.84 | 81 510.99 | 130 015.63 | 54 448.77 | | **554 700.23** |
| **01 yanvar 2023-cü il tarixə qalıq dəyəri** | **857 245.16** | **88 874.23** | **72 984.38** | **106 928.84** | **2 469 932.78** | **3 595 965.38** |
| Daxilolmalar | | 145 656.84 | | 41 021.62 | | **186 678.46** |
| Xaricolmalar | | | | | | |
| Amortizasiya hesablamalar ı | 60 007.16 | 46 885.44 | 18 246.09 | 29 610.86 | | **154 749.56** |
| **31 dekabr 2023-cü il tarixə ilkin dəyər** | **1 145 970.00** | **316 042.06** | **203 000.00** | **202 399.23** | **2 469 932.78** | **4 337 344.07** |
| Yığılmış amortizasiya | 348 732.00 | 128 396.44 | 148 261.72 | 84 059.63 | | **709 449.79** |
| **31 dekabr 2023-cü il tarixə qalıq dəyəri** | **797 238.00** | **187 645.62** | **54 738.28** | **118 339.60** | **2 469 932.78** | **3 627 894.28** |

## QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Mərkəz ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, Amortizasiya olunan qeyri-maddi aktivlər üzrə illik amortizasiya normaları istifadə müddəti məlum olmayanlar üçün 10 il, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə müəyyən edilir.

## EHTİYATLAR

Ehtiyatların maya dəyəri satınalmaların qiyməti üzrə hər bir ehtiyatın mədaxil olunduğu qiymətlə (ilkin dəyərlə) hesablanır. Maya dəyəri bərabərdir dövrün əvvəlinə olan material ehtiyatları üstəgəl satınalmalar çıxaq dövrün sonuna material ehtiyatları. Mal-material ehtiyatları FİFO (ilk mədaxil ilk məxaric) metodu tətbiq edilməklə aparılır.

Mal-material və digər aktivlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | 31.12.2023 | 01.01.2023 |
|---|---|---|
| Materiallar | 158 587.92 | 65 156.20 |
| Mallar | | |
| Digər | 140229.81 | 104 061.57 |
| **Cəmi** | **298 817.73** | **169 217.77** |

## SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR

Sair qısamüddətli aktivlər qabaqcadan ödənilmiş avanslardan və alınmış qiymətlilər və xidmətlər üzrə əvazləşdirilən əlavə dəyər vergisindən ibarətdir.

Sair qısamüddətli aktivlərin hərəkəti aşağıdakı kimidir:

| | Qabaqcadan ödənilmiş avanslar | Sair qısamüddətli aktivlər | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixə qalıq** | **2 899.79** | **0,00** | **2 899.79** |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **4 207.13** | **0,00** | **4 207.13** |

## İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR VƏ AİDİYYATI AYIRMALAR

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Mərkəz Əmək haqqı fondundan məcburi sosial ayırmalar hesablayır və işçilərin əmək haqqlarından məcburi sosial sığorta haqları tutur və köçürür.

Mərkəzin 2023-cü ildə əmək haqqı fondu 1 314 803.28 manat olmuşdur.

## GƏLİR VƏ XƏRCLƏRİN TƏHLİLİ

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Mərkəzin fəaliyyəti Mərkəz ilə bağlanmış müqavilələr əsasında aparılır.

**Xərclər aşağıdakı kimidir:**

| | **2023** | **2022** |
|---|---|---|
| Sərf edilmiş malların dəyəri | 233 240.90 | 331 050.66 |
| Əmək haqqı və əmək haqqına görə ayırmalar | 1 314 803.28 | 1 205 278.64 |
| Amortizasiya xərcləri | 156 948.40 | 143 323.66 |
| Sorğuların keçirilməsi ilə bağlı xərclər | 365 552.96 | 616 250.70 |
| İcarə haqqı ödənişi ilə bağlı xərclər | | 52 080.00 |
| Haqq və komisya xərcləri | 10 072.17 | 9 091.40 |

| | | |
|---|---|---|
| Nəqliyyat vasitələrinin təmir və saxlanma xərcləri | 18 877.00 | 3 988.00 |
| Proqram təminatlarının dəstəklənməsi üzrə xərclər | 9 204.00 | 2 337.51 |
| Rabitə xərcləri | 1 621.86 | 851.38 |
| Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | 74 756.52 | 863.76 |
| Ezamiyyə xərcləri | 26 957.87 | 26 428.45 |
| Məsləhət, audit və digər peşəkar xidmətlər üzrə xərclər | 5 000.00 | 5 000.00 |
| Digər xidmətlər üzrə xərclər | 152 606.88 | 81 944.03 |
| Məzənnə xərcləri | 123.88 | |
| **Cəmi** | **2 369 765.72** | **2 477 488.18** |

## MƏNFƏƏT VERGİSİ

Hazırkı maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Mənfəət vergisindən başqa vergilər əməliyyat xərcləri kimi qeydə alınır. Mərkəzin bəzi xərcləri vergiyə cəlb olunmadığından daim vergi xərcləri ilə üzləşir. Mərkəz 2023-cü ildə 204 027.01 manat zərərlə işləmişdir. Mərkəzin əldə etdiyi mənfəətdən 0.00 manat mənfəət vergisi hesablanmışdır.

## HESABLAŞMA VƏ KREDİT ƏMƏLİYYATI

Mərkəz bank kreditləri almamışdır. Hesablaşmalar Müəssisələrlə bank hesablaşmaları ilə aparılmışdır. Debitor borclar alıcılar və sifarişçilərlə hesablaşmadan yaranmış, kreditor borclar isə mal göndərənlər, podratçılar və digər kreditorlarla hesablaşmalardan yaranmışdır.

Mərkəzin debitorlarla və kreditorlarla hesablaşmaları aşağıdakı kimidir:

**Qısamüddətli debitor borclar aşağıdakı kimidir:**

| | 01.01.2023 | Hesablanıb | Ödənilib | 01.01.2023 |
|---|---|---|---|---|
| Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları | 0,00 | 56 224.40 | 56 224.40 | 0,00 |

**Qısamüddətli kreditor borclar aşağıdakı kimidir:**

| | 31.12.2023 | 01.01.2023 |
|---|---|---|
| Malsatanlara qısamüddətli kreditor borcları | 0.00 | 0.00 |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | | |

**VERGİLƏR**

Mərkəz Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq, mənfəət vergisi, əmlak vergisi və əlavə dəyər vergisi, muzdlu və muzdlu olmayan gəlirlərdən gəlir vergisi, vergi qanunvericiliyinin tələblərinə müvafiq olaraq dövlət rüsumlarının ödəyicisidir.

İdarə heyətinin sədri — Zahid Oruc

Maliyyə departamentinin müdiri — Aynur Mikayılova